**Huseynova S.U.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.58.106-135**

# The concept of human trafficking crime and its definition in the legislation

**Abstract**: The concept of human trafficking and its definition in legislation are considered. In the disposition of Article 144-1 of the Criminal Code and the Law on Combating Human Trafficking has been provided a comprehensive definition of 'human trafficking'. In the conventions adopted by the UN and other international organizations, the concept of 'human trafficking' has been well defined. Nevertheless, international experts and prominent scientists have come up with different positions in analyzing the phenomenon of human trafficking. The superiority of some of the suggested concepts is that the authors have not ignored the norms of national legislation, taking into account the rules of international law. Finally, the definition of 'human trafficking' has been prepared in accordance with the relevant UN Protocol.

In addition, it is clarified some terms or concepts closely related to human trafficking, taking into consideration international law norms in national legislation. It is believed that the giving of a legislative act of criminal acts help to distinguish between similar socially dangerous actions and to properly conform to the offenses. It is noted that human trafficking is perceived as a serious transnational threat by many countries and international organizations.

Thus, a number of systematic measures have been implemented since 2004 on the basis of national action plans approved by the President of the Republic of

♦ **Huseynova Sevinj Usub qyzy** – PhD in Law, Scientific researcher of the Department for Criminal law and criminal process of the Institute for Law and Human Rights of the National Academy of Sciences of Azerbaijan (Azerbaijan). E-mail: sevhuseyn@yahoo.com

Azerbaijan. Taking into consideration the international treaties to which the Republic of Azerbaijan has acceded to the fight against human trafficking pursuant to the National Plan of Action, consistent measures have been taken to establish and improve the national legislative framework in this area. On June 28, 2005, the Law of the Republic of Azerbaijan ‘On combating human trafficking’ was adopted. In accordance to the Law of the Republic of Azerbaijan dated September 30, 2005, Human Trafficking - Article 144-1, Compulsory Labor - 144-2 and Confidential Information on Victim of Human Trafficking - Articles 316-1 has been added to the Criminal Code of the Republic of Azerbaijan.

These articles are included in Chapter XIX called ‘Crimes against freedom and dignity of personality’ in section ‘Crimes against personality’ of the new Criminal Code of the Republic of Azerbaijan. Human trafficking is a multi-aspect manifestation, causing incurable diseases in the society, inciting serious and dangerous crimes, and seriously harming human rights and freedoms.

Since human trafficking is a type of transnational organized crime, all countries of the world should fight against it and coordinate their activities in this area.

**Keywords**: human trafficking; social problem; criminal manifestation; international law; national legislation; human exploitation; sexual exploitation; slavery; customs alike to slavery; victim of human trafficking.

İnsan hüquq və azadlıqlarının təmin olunması müasir dövrün əsas prioritet məqsədlərindən biri olsa da, yer üzündə ən ali varlıq hesab edilən insanın müxtəlif məqsədlərlə istismarı hələ də qlobal problemlərdən biri olaraq qalmaqdadır. Cəmiyyətin həyatında maddiyyata əhəmiyyətli dərəcədə münasibətin dəyişməsi insanı bir əmtəəyə, alqı-satqı predmeti kimi satışa çıxarılması ilə nəticələnmişdir. Qeyd edək ki, adam oğurluğu cinayəti istənilən məqsədlə törədilə bildiyi halda, insan alveri cinayəti yalnız şəxsin istismar edilməsi məqsədilə törədilə bilər. İnsan

alveri çoxsaylı təzahürləri və mənfi nəticələri təhlükəli mahiyyət daşıyır. Belə əməllər insanların, əsasən də qadınların və uşaqların qanunsuz istismarına, orqan və toxumalarının çıxarılıb satılmasına, mənəvi və əxlaqi dəyərlərin pozulmasına, fahişəliyə, mütəşəkkil cinayətkarlığın artmasına, sərhəd rejimlərinin və beynəlxalq hüquq normalarının, xüsusilə insan hüquq və azadlıqlarının pozulmasına səbəb olur.

Beynəlxalq miqyasda insan alveri cinayətlərinin transmilli mütəşəkkil xarakter alması bəşəriyyəti narahat edən ciddi sosial problemə çevrilmişdir. Mövcud olan bu vəziyyət dövlətlərin insan alveri cinayətəri ilə mübarizəyə yönələn səylərinin birləşdirilməsini zəruri etmişdir.

Tarixə "qul alveri" kimi daxil olan qədim bir peşə, indi hüquq aləmində dövriyyəyə kriminal təzahür – "insan alveri" termini kimi daxil olmuşdur. Beynəlxalq hüquqda buna oxşar və ya analoq kimi istifadə edilən "traffic" ("traffik") termini əslində "qeyri-qanuni daşıma" mənasını versə də, lakin bəzən insanların alver məqsədilə lazım olan yerə aparılması mənasında işlədilir.

Beynəlxalq ekspertlərin bir çoxu bu mövqedən çıxış etmişlər ki, "insan alveri" qadına qarşı aldatma və istənilən növ məcburetmənin də daxil olduğu hərəkətlər kompleksi kimi başa düşülməlidir [12, s. 10]. Bu fikrlə bağlı N.V. Xodıreva və M.Q.Svetkova hesab edirlər ki, insan alveri müxtəlif təsir formalarından istifadə etməklə, qazanc götürmək məqsədi ilə adamların cəlb edilməsi, daşınıb aparılması, fahişəliyə cəlb edilməsi, satılması kimi əməllərin bir qrup şəxs tərəfindən həyata keçirilməsinə yönələn hərəkətlər kompleksidir [7, s. 25]. V.S. Sviridov bu fikirlə razılaşmamış və "traffick" termininin yerdəyişmə, daşınma, aparma kimi, ümumilikdə isə insan alveri ilə eyniləşdirməyi düzgün hesab etməmiş və göstərmişdir ki, yerdəyişmə və daşınma olmadan da insanları ticarət və ya alver predmetinə çevirmək mümkündür. Eləcə də insanların daşınması heç də həmişə tamah və ya gəlir əldə etmək niyyəti güdə bilməz. O, "traffik" terminini "adamların kriminal yerdəyişməsi" hesab edir və insanların öz iradələrinin ziddinə

olaraq istənilən üsulla yerdəyişməsi kimi başa düşməyi təklif edir [11, s. 8-9].

M.Y. Buryak insan alveri fenomeni təhlil edərək yazır: "cinsi istismar məqsədilə qadın alveri-fahişəliklə məşğul olmaq və ya digər cinsi istismar üçün qadınların cəlb edilməsi, daşınması, verilməsi, gizlədilməsi və ya əldə edilməsidir" [10, s. 9-10]. O eyni zamanda hesab edir ki, beynəlxalq hüquqi sənədlərdə insan alverinə mükəmməl tərifin verilməməsi, bəzən cinsi istismarın fahişəliklə eyniləşdirilməsinə gətirib çıxara bilər. Halbuki, cinsi istismar anlayışı daha geniş məna kəsb edir. Buraya fahişəlik, insanlardan istifadənin digər çoxsaylı üsulları, o cümlədən striptiz, pornoqrafik çəkilişlər və s. daxildir. Məlumdur ki, hüquqi mənada "alver" əmtəənin, əşyanın bir sahibkardan digərinə qazanc götürmək məqsədilə alq-satqısı yolu ilə reallaşır. İnsan alverində isə bir qayda olaraq zərərçəkmiş şəxs gəlir məqsədilə müxtəlif üsullarla ələ keçirilərək ehtiyacı olanlara satılır və bununla da insan alveri mahiyyət etibarı ilə adamların kriminal istismarını həyata keçirməyə və külli miqdarda gəlir əldə etməyə yönələn kriminal fəaliyyət kimi təzahür edir [10, s. 61].

İnsan alverinin istismar məqsədilə edilməsi müxtəlif niyyətlər, üsul və vasitələrlə həyata keçirilə bilər. Məsələn, insan orqanlarının və toxumalarının transplantasiyası, zorla donorluğa cəlb edilməsi, köləlik və ona bənzər başqa vəziyyətlərdə istismar edilməsi kimi niyyətlər buna nümunə ola bilər.

BMT-nin 1956-cı il 30 aprel tarixli "Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında Əlavə Konvensiya"nın 1-ci maddəsində göstərilmiş institut və adətləri əhatə edir [4, s. 2]. Konvensiyada göstərilir ki, köləlik və ona bənzər başqa vəziyyətlər dedikdə, borcu ödəmək üçün qeyri-insani şəraitlərdə işləmək, təhkimçilik vəziyyəti, istənilən institut və ya adətlər başa düşülməlidir. Azyaşlı uşağın və ya 18 yaşına çatmayan yeniyetmə şəxsin valideynlərinin biri və ya hər ikisi olmadığı hallarda təyin edilmiş qəyyum şəxs tərəfindən istismar edilməsi və ya onun bu məqsədlə kənar şəxslərə verilməsi belə adətlərə nümunə ola bilər. Bundan başqa insan alverinin qurbanı cinayətkar

fəaliyyətə cəlb edilə bilər, ona hədə-qorxu və ya zor tətbiq etməklə, oğurlamaqla, aldatmaqla və s. bu kimi üsul və vasitələrindən istifadə etməklə istismar edilə bilər və s. Bu zaman istismar qurbanının razılığının olub-olmaması nəzərə alınmır.

BMT-nin 15 noyabr 2000-ci il tarixli müvafiq Protokolunda nəzərdə tutulmuş ayrı-ayrı terminlərin izahı və anlayışlar bir çox ölkələrin milli qanunlarında implimentasiya edilmiş və cinayət tərkibləri formalaşarkən nəzərə alınmışdır. Belə ki, Rusiya Federasiyasının Cinayət Məcəlləsinə görə insan alveri dedikdə, insanın alqı-satqısı və ya onun istismarı məqsədilə törədilən cəlbetmə, daşıma, vermə, gizlətmə və ya əldə etmə kimi hərəkətlər kompleksi başa düşülür. Göründüyü kimi, burada "insan alveri" anlayışı ilə insana münasibətdə törədilə biləcək sövdələşmələrin, əqdlərin bütün növ çoxluğu və ya müxtəlifliyi tam əhatə olunmamışdır. Məsələn, bağışlama, dəyişdirmə, borcun qaytarılmasını təmin etmək üçün qurbandan girov kimi istifadə etmə kimi hərəkətlər tərkibə daxil edilməmişdir. Buna görə də T.D. Ustinova və İ.D. İzmaylova bu boşluğun aradan qaldırılması üçün qeyd olunan maddənin dispozisiyasına cinayət məsuliyyəti doğuran əməl kimi insana münasibətdə alqı-satqı ilə yanaşı digər əqdlərin bağlanmasının da daxil etməyi təklif etmişlər [13].

Hansı ölkədə, nə vaxt baş verməsindən, milli və ya beynəlxalq mahiyyət daşımasından asılı olmayaraq kriminal təzahür kimi insan alveri cinayətləri oxşar hərəkətlərlə, oxşar əlamətlərlə, oxşar üsul və vasitələrlə törədilir. Buna görə də belə cinayətlərin öyrənilməsi, tədqiqi, istintaqı, məhkəmə baxışı, profilaktikası və digər tədbirlər də təbii olaraq oxşar və bəzən də nisbi eynilik təşkil edir. Bununla belə insan alverinə qarşı qanunvericilik bazasının təşəkkülü, "insan alveri"nə anlayışın verilməsi və mübarizənin təşkili sahəsində ölkəmizdə müstəqillik illərində əhəmiyyətli işlər görülməsi xüsusi tədqiq tələb edir. Belə ki, 2000-ci il dekabrın 12-də imzalanmış və 2003-cü il mayın 13-də Azərbaycan Respublikasının Qanununu ilə BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının və onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq

alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolunun, habelə 20 sentyabr 2002-ci ildə qəbul edilən "İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında" Brüssel Bəyannaməsinin müddəaları nəzərə alınaraq, nəhayət ki, Azərbaycan Respublikası Prezidentinin 06 may 2004-cü il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Bu sənəddə insan alverinə qarşı mübarizənin bütün aspektlərini özündə birləşdirən və səmərəli surətdə əlaqələndirə bilən sistemin yaradılmasına xüsusi diqqət yetirilmiş, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində Milli Koordinator təyin edilmiş, həmin Nazirliyin strukturunda hazırda müstəqil olan İnsan Alverinə qarşı Mübarizə İdarəsi təsis edilmişdir. Milli Koordinator insan alveri ilə bağlı cinayətlərlə əlaqədar əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin daha səmərəli surətdə həyata keçirilməsi məqsədilə təhlükəsizlik, sərhəd xidməti, polis, prokurorluq orqanları, məhkəmələr, digər dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə zəruri əlaqələr qurur. Milli Koordinatorun funksiyaları Milli Fəaliyyət Planı ilə müəyyən edilir.

Milli Koordinator Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına, Azərbaycan Respublikasının Milli Məclisinə və Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinə (Ombudsmana) Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik məlumat təqdim edir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə təsdiq edilmiş Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə 2004-2008, 2009-2013 və 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planlarının təsdiq edilməsi bu sahədə mühüm əhəmiyyət kəsb etmişdir. Məhz bu Planlara müvafiq olaraq ötən dövrdə xeyli əsaslı tədbirlər görülmüş, insan alveri ilə mübarizəni təmin edən zəruri normativ hüquqi aktlar hazırlanıb qəbul edilmiş və xüsusi dövlət qurumları yaradılmışdır.

Qeyd edək ki, insan alveri əksər dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən ciddi transmilli təhdidlərdən biri olaraq qəbul edilir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə təsdiq edilmiş milli fəaliyyət planları əsasında 2004-cu ildən etibarən həyata keçirilən sistemli tədbirlər sayəsində həmin hüquqazidd əməllərin profilaktikasında və cinayət təqibi üzrə fəaliyyətdə müsbət nəticələr əldə edilmiş, bir çox vacib məsələlərin həllinə nail olunmuşdur.

Milli Fəaliyyət Planı üzrə tədbirlərə müvafiq olaraq insan alveri ilə bağlı cinayətlərə qarşı mübarizəyə dair Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr nəzərə alınmaqla, bu sahədə milli qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi ilə əlaqədar ardıcıl tədbirlər həyata keçirilmişdir. Belə ki, 2005-ci il iyunun 28-də insan alverinin profilaktikasının, insan alveri qurbanlarının müdafiə edilməsinin və onlara köməklik göstərilməsinin hüquqi və təşkilati əsaslarını tənzimləyən "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun Azərbaycan Respublikasında insan alverinin profilaktikasının, insan alverinə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını, habelə insan alveri qurbanlarının hüquqi vəziyyətini müəyyən edir, insan alveri qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi məsələlərini tənzimləyir. Bu Qanunda beynəlxalq hüquq normaları, ayrı-ayrı alimlərin təklifləri və s. nəzərə alınmaqla milli səviyyədə insan alverinə daha mükəmməl anlayış verilmişdir. Qanununun 1.0.1 maddəsində insan alveri dedikdə, – zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi (uşağın istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması,

gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi, bu maddədə göstərilən üsullardan istifadə olunmasa da, insan alveri hesab edilir) [3, s. 4-5].

Bundan sonra Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının CM-ə 144-1-ci maddə əlavə edilmişdir.

CM-in 144-1-ci maddəsində nəzərdə tutulan cinayət əməlinin şərhi zamanı “İnsan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında” BMT-nin 1950-ci il 21 mart tarixli Konvensiyasına, “İnsan alverinə qarşı mübarizə haqqında” 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikası Qanununa, “Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında” 6 may 2004-cü il tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamına, Azərbaycan Respublikası adından 2000-ci il dekabrın 12-də Palermo şəhərində imzalanan və 2003-cü il mayın 13-də Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilən BMT-nin “Transmilli mütəşəkkil cinayətkarlığa qarşı” Konvensiyasının və onu tamamlayan “İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında” Protokoluna, “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında” 2005-ci il 25 noyabr tarixli Sazişin müddəalarına istinad olunmalıdır [2, s. 496].

Bu maddənin dispozisiyasına görə insan alveri insan alveri, yəni zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla, şəxsin istismar edilməsi məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi kimi hərəkətlər anlaşılır. Bu maddənin “Qeyd” hissəsinin 1-ci bəndində 144-1.1 maddəsinin dispozisiyasında istifadə edilən “insanın istismarı” ifadəsinə aydınlıq

gətirilmişdir. Orada göstərilmişdir ki, "insanın istismarı" dedikdə, məcburi əmək (xidmət), cinsi istismar, köləlik, köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti, insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması, şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması, qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb etmə başa düşülür [1].

Göründüyü kimi, həm Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunu və həm də buna müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinə daxil edilmiş 144-1 maddəsinin dispozisiyası mükəmməl və əhatəli verilmişdir. Yuxarıda göstərilən qeydlərdən də məlum olur ki, CM-in 144-1-ci maddəsində insan alverinə verilən anlayış "İnsan alverinə qarşı mübarizə haqqında" 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanununun 1.0.1-ci maddəsində insan alverinə verilən anlayışla eynidir. Bununla belə AR-nın CM-ə, habelə bir sıra digər MDB ölkələrinin (Rusiya, Ukrayna və s.) CM-ə bu cinayət-hüquq norması daxil edilməzdən əvvəl xüsusi ədəbiyyatda müvafiq ictimai təhlükəli əməlin qanunvericilik şərhi ilə bağlı bir neçə variantlar təklif olunmuşdur.

BMT-nin və digər beynəlxalq qurumların qəbul etdiyi Konvensiyalar, Qərarlar, Qətnamələr və digər sənədlər ona qoşulan ölkələrin qanunvericiliyinin, o cümlədən cinayət qanunvericiliyinin formalaşmasına mühüm təsir göstərmişdir. Məsələn, RF-da 08 dekabr 2003-cü il tarixdə insan alveri ilə mübarizəni gücləndirmək tədbirləri haqqında Qanun, eləcə də ona müvafiq dəyişiklilərin aparılması haqqında 21 iyul 2004-cü il tarixli Qanunla edilən dəyişiklikdən sonra RF Cinayət Məcəlləsinə insan alverinə görə 127-1, qul əməyindən istifadəyə görə isə 127-2 maddəsi əlavə edildi. CM-nin 127-1 maddəsinin dispozisiyasında, insan alveri dedikdə, şəxsi alıb-satmaq və ya istismar etmək məqsədilə cəlb etmək, daşımaq, göndərmək, gizlətmək və ya almaq kimi hərəkətlərin başa düşüldüyü qeyd edilir. Bu maddənin 2 və 3-cü bəndlərində eyni əməllər tövsifedici və

qiymətləndirici əlamətlər olduğu hallarda təqsirləndirilən şəxsə daha sərt cəzanın 15 ilə qədər müddətdə azadlıqdan məhrum etmə cəzasının təyin edilməsini nəzərdə tutmuşdur. İnsan alveri ilə mübarizədə RF-da baş verən proseslər MDB-nin və dünyanın bir sıra digər ölkələrində də müvafiq qaydada təkrarlanmışdır [9, s. 346-352].

Təklif olunan bəzi anlayışların üstün cəhəti ondan ibarət idi ki, müəlliflər beynəlxalq qanunvericilik normalarını nəzərə almaqla yanaşı, milli qanunvericilik texnikası qaydalarının da gözlənilməsini yaddan çıxarmamışlar. Lakin AR CM-nın 144-1-ci, habelə RF-nın 127-1-ci maddələrinin dispozisiyasının təhlili göstərir ki, təklif olunan definisiyaların heç biri bütünlüklə qəbul olunmamış və ən mükəmməl variant seçilmişdir. Bu da yuxarıda qeyd edilən BMT-nin müvafiq Protokoluna uyğun olaraq hazırlanmışdır. Bundan başqa milli qanunvericilikdə beynəlxalq hüquq normaları nəzərə alınaraq insan alveri ilə sıx bağlı olan bəzi terminlərə və ya anlayışlara da aydınlıq gətirilmişdir. Məsələn, "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 1.0.4. və 1.0.7-1.0.8-ci maddələrinə görə cinsi istismar dedikdə, şəxsin fahişəlikdə, seksual köləlikdə və ya pornoqrafik materialların istehsalında istifadə edilməsi, digər şəxslərin cinsi istismarından mənfəət əldə edilməsi, insan alverçisi dedikdə, insan alveri ilə əlaqədar hər hansı fəaliyyəti həyata keçirən fiziki və ya hüquqi şəxs, insan alverinin qurbanı dedikdə, insan alverindən zərər çəkmiş, yaxud zərər çəkməsi ehtimal olunan şəxsin başa düşülməsi vurğulanmışdır.

Respublikada hüquq islahatının aparılması istiqamətində böyük addımlar atılmışdır. Bu da öz ifadəsini ilk növbədə Respublikanın yeni Cinayət Məcəlləsinin qəbulunda tapmışdır. Respublikanın qüvvədə olan Cinayət Məcəlləsi hazırlanarkən cinayət hüquq yaradıcılığı sahəsində müsbət beynəlxalq təcrübə nəzərə alınmışdır. Məcəllə ümumbəşəri prinsiplərə və nəzəri müddəalara söykənərək, özünün mühafizəedici mexanizmi ilə insanı, onun həyatının, səhhətini, hüquq və azadlıqlarını daha əhatəli müdafiə altına almışdır [5, s. 4].

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi həm də Azərbaycan Respublikası Cinayət Məcəlləsində insan alverinə qarşı mübarizə tədbirlərinə dair cinayət hüquq normalarının əlavə edilməsi zərurətini yaratdı. Buna görə də, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklik edilməsi haqqında" 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə İnsan alveri – 144-1-ci maddə ilə yanaşı, Məcburi əmək – 144-2 və İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yayma – 316-1-ci maddələr əlavə edildi.

Qeyd edək ki, Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində "Şəxsiyyət əleyhinə olan cinayətlər" VIII bölmədə verilmişdir. Bu bölmənin XIX fəsli isə "Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər"ə görə məsuliyyət müəyyən etmişdir. İlk öncə adam oğurluğuna (maddə 144), qanunsuz azadlıqdan məhrum etməyə (maddə 145), qanunsuz olaraq psixiatriya xəstəxanasına yerləşdirmə (maddə 146), böhtan (maddə 147) və təhqirə (maddə 148) görə məsuliyyət müəyyən edən beş maddədən ibarət olan bu fəsilə, sonradan, yəni 30 sentyabr 2005-ci il tarixli Qanunla insan alverinə görə məsuliyyət müəyyən edən 144-1 və məcburi əməyə görə cinayət məsuliyyəti müəyyən edən 144-2-ci maddələri, 19 aprel 2013-cü il tarixli "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanunla insan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkətlər – 144-3-cü maddə və 29 noyabr 2016-cı il tarixli Qanunla internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə – 148-1-ci maddələri əlavə edilməklə cəmi səkkiz maddədən ibarət olmuşdur.

"Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər"ə görə müstəqil fəslin nəzərdə tutulması Azərbaycan Respublikasının insan hüquq və azadlıqlarının təmin olunması sahəsində üzərinə götürdüyü öhdəliklərdən irəli gəlir və olduqca böyük əhəmiyyət kəsb edir.

İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun “Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair” (2018) illik hesabatına əsasən XXI əsrin təhdid və çağırışlarından hesab edilən insan alverinə qarşı mübarizədə dünya birliyinin səyləri – problemin qloballığı baxımından, ötən il daha da gücləndirilmiş, əvvəlki illərlə müqayisədə xeyli çox – 14.897 fakt və 66.520 qurban müəyyən edilərək təqsirli şəxslər barəsində məhkəmələr tərəfindən 9.071 ittiham hökmü çıxarılmışdır

İnsan alveri sinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məhkəmə məsuliyyətinə verilməsi sahəsində fəaliyyət də məqsədyönlü xarakter daşımışdır. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 142 insan alveri, 6 məsburi əmək sinayəti, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 26 fakt aşkarlanmış, 17 nəfərdən ibarət 8 sinayətkar qrup zərərsizləşdirilmişdir. İnsan alveri və məcburi əmək faktlarına görə başlanılmış cinayət işlərindən 28-nin istintaqı tamamlanaraq 33 şəxs (25-i qadın, 8-i kişi) barəsində məhkəmələr tərəfindən ittiham hökmləri çıxarılmışdır.

İllik məlumatda ölkəmizdə insan alverinə qarşı mübarizənin hüquqi müstəvidə aparılmasının başlanğıcının qoyulduğu 2003-cü ildən sonrakı 15 ildə bu hüquqazidd əməllərin qarşısının alınması, cinayət təqibinin yüksək səviyyədə həyata keçirilməsi, qurbanların müdafiəsi, ölkədaxili və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində böyük bir fəaliyyət ortaya qoyulması xüsusi vurğulanmışdır [6].

Bildiyimiz kimi, İnsan alveri və onunla bağlı cinayətlər dünya ictimaiyyəti üçün kəskin problemlərdən biridir. Beynəlxalq təşkilatların məlumatlarına görə, İnsan ticarəti gəlirləri ildə 9-12 milyard dollar təşkil edir. Rəsmi mənbələrdən bildirilir ki, hər il 600-800 min insan insan alverinin qurbanı olur. Qurbanların 80% -i qadındır, 50% -i isə uşaqlardır. Xüsusilə insan alverinin transmilli xarakteri xüsusilə narahatlıq doğurur. Bu gün beynəlxalq təşkilatlar insan alveri ilə mübarizəyə qlobal miqyasda bir sıra sənədlər qəbul ediblər [8].

Göründüyü kimi, insan alveri transmilli cinayətdir. Bu gün dünyada insan alverini müəyyənləşdirən və ona səbəb olan əsas amillər: qloballaşma və iqtisadi inteqrasiya, transmilli cinayət təşkilatlarının aktivləşməsi, dövlət qurumlarında korrupsiya, cinsi sənayenin inkişafı və fahişəliyin yayılması, cinsi xidmətə tələbatın artması və ucuz əmək, dövlətin sosial-iqtisadi inkişafının aşağı səviyyəsi, işsizlik, qanunvericilikdə boşluqların olması və s.

İnsan alverinin qarşısının alınması aşağıda göstərilən sosial yönümlü tədbirlərin tətbiq olunması ilə qarşılana bilər: dövlətin iqtisadi və mədəni həyat səviyyəsinin yüksəldilməsi, bu sahədə cinayətin artmasına kömək edən sosial hadisələrin aradan qaldırılmasına yönəlmiş dövlətin fəaliyyəti; dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının əməkdaşlığı, beynəlxalq əməkdaşlıq və informasiya mübadiləsi; cinayət qurbanlarını qorumaq, onlara tibbi, psixoloji, hüquqi yardım göstərmək; qanunvericiliyin təkmilləşdirilməsi; mövcud problem barədə ictimaiyyətə məlumat vermək, müvafiq təhsil kampaniyaları, seminarlar, konfranslar və forumların keçirilməsi; miqrasiya siyasətinin təkmilləşdirilməsi və istismara olan tələbatın qarşısının alınması; nəzəri, sosioloji tədqiqatların aparılması, problemin digər məlumatlarını toplamaq və təhlil etmək və s. Bununla yanaşı, qurbanların hüquqi statusu, müdafiəsi, bərpası və reabilitasiyasını təmin etmək üçün bir sıra tədbirlərin inkişafı və qanunvericiliklə həyata keçirilməsi zəruridir.

İnsan alveri çox aspektli təzahür forması olmaqla cəmiyyətdə sağalmaz xəstəliklər doğurur, ağır və təhlükəli cinayətlərin törədilməsinə rəvac verir, insan hüquqlarına və azadlıqlarına ciddi zərər vurur. Bütün bunlara görə də beynəlxalq qurumlarda, ayrı-ayrı dövlətlərdə bu problemin öyrənilməsinə və belə kriminal təzahürlərlə səmərəli mübarizəyə xüsusi önəm verilir. İnsan alveri ilə ciddi mübarizə aparılması Azərbaycan Respublikasının dünya birliyi qarşısında üzərinə götürdüyü öhdəliklərdən irəli gəlir və olduqca əhəmiyyətlidir.

Xüsusi olaraq qeyd edək, insan alveri cinayətləri transmilli mütəşəkkil

cinayətkarlığın bir növü olduğundan, bütün dünya ölkələri ona qarşı birgə mübarizə aparmalı, bu sahədə fəaliyyətlərini daha geniş əlaqələndirməlidirlər.

## References


1. Azerbaycan Respublikasinin Cinayet Mecellesi [Criminal Code of Azerbaijan Republic]. Baku, 2018, 472 p.
2. Azerbaycan Respublikasi Cinayet Mecellesinin kommentariyasi [Commentary to Criminal Code of Azerbaijan Republic]. Edited by Doctor of Law, Prof. F.Y.Samandarov. Baku, 2018, 704 p.
3. Insan alverine qarshi mubarize haqqinda qanun [Law On combating to human trafficking]. Baku, 2005, 32 p.
4. Insan alverine qarshi mubarize haqqinda. [Law On combating to human trafficking]. Baku, 2007, 39 p.
5. Samandarov F.Y. Cinayet huququ. Umumi hisse [Criminal law. General part]. Baku, 2018, 724 p.
6. Illik hesabat ve chihishlar - Azerbaycan Respublikasi Daxili Ishler Nazirliyi [Annual Report and speeches-Ministry of Internal Affairs of Azerbaijan Republic]. [Internet resources]. Available at: https://www.insanalveri.gov.az/?/az/menu/17/
7. Yerokhina L.D. Buryak M.Yu. Torgovlya zhenschinami v tselyakh ekspluatatsii [Trafficking in women for exploitative purposes. Theory and practice of struggle. Tutorial]. Vladivostok, 2001, 196 p.
8. Kadnikov F.N. Kriminologicheskaya kharakteristika i preduprezhdenie prestupleniyi, svyazannykh s torgovleyi lyud’mi [Criminological characteristic and prevention of crimes associated with human trafficking]. Dis...kand.yurid.nauk [PhD in Law Dissertation]. Moscow, 2007, 196 p.
9. Kommentariyi k Ugolovnomu Kodeksu Rossiyiskoyi Federatsii (postateyinyi) [Commentary to Criminal Code of Russian Federation (itemized)]. Moscow, 2009, 1015 p.

10. Repetskaya A. Klassifikatsiya kriminal’noyi ekspluatatsii lyudeyi i problemy ugolovnoyi otvetstvennosti za neye [Classification of criminal exploitation of people and problems of criminal responsibility for it]//Torgovlya lyud’mi. Sotsiokriminologicheskiyi analiz [Human trafficking. Socio-criminological analysis]. Pod red. [Ed. by] E.V. Tyuryukanova and L.D. Yerokhina. Moscow, 2002, 87 p.

11. Sviridov V.S. Kriminal’noe peremeschenie lyudeyi: kharakteristika i preduprezhdenie [Criminal movement of people: characteristic and prevention]. Avtoref. dis. kand. yurid. nauk [Abstract of PhD in Law Dissertation]. Omsk, 2003, 21 p.

12. Sinitsyn F.L. Mezhdunarodnoe zakonodatel’stvo po probleme torgovli lyud’mi [International legislation on problem of human trafficking]. Perm, 2000, 94 p.

13. Stat’ya 127.1 UK RF: problemy primineniya i... [Article 127.1 of Criminal Code of Russian Federation: problems of application and...]. [Internet resources]. Available at: https://www. sovremennoepravo.ru/.../Статья-127-1-УК-РФ-...